**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№377/1** **13 iyun 2025-ci il**

**Azərbaycan Respublikası Auditorlar Palatasının sədri, iqtisad elmləri doktoru, professor Vahid Tapdıq oğlu Novruzovun anadan olmasının 75 illik yubileyi münasibətilə hazırlanmış Biblioqrafiya barədə**

Azərbaycan Respublikası Auditorlar Palatasının sədri, Qərbi Azərbaycan İcmasının Nəzarət - Təftiş Komissiyasının sədri, Azərbaycan Ağsaqqallar Şurasının sədr müavini, Yeni Azərbaycan Partiyası Veteranlar Şurasının üzvü, Beynəlxalq Elmlər Akademiyasının Azərbaycan Bölməsinin akademiki, Beynəlxalq Ekologiya Akademiyasının həqiqi üzvü, Asiya Elmlər Akademiyasının TK İdarə Heyətinin üzvü (ÇXR), Gürcüstan Mühasiblər, Auditorlar və Məsləhətçilər Cəmiyyətinin fəxri üzvü, iqtisad elmləri doktoru, professor Vahid Tapdıq oğlu Novruzovun anadan olmasının 75 illik yubileyi münasibətilə tərtib edilmiş Biblioqrafiyanın layihəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Azərbaycan Respublikası Auditorlar Palatasının sədri, iqtisad elmləri doktoru, professor Vahid Tapdıq oğlu Novruzovun anadan olmasının 75 illik yubileyi münasibətilə hazırlanmış Biblioqrafiya bəyənilsin və nəşri məqsədəmüvafiq hesab edilsin.
2. Biblioqrafiyanın nəşri ilə bağlı xərclərin maliyyələşdirilməsi Auditorlar Palatasının maliyyə vəsaiti hesabına həyata keçirilsin.
3. Auditorlar Palatasının icraçı direktoru S.Gülməmmədova və Maliyyə və texniki təminat idarəsinə (B.Abbasov) tapşırılsın ki, iki həftə müddətində Biblioqrafiyanın 500 (beş yüz) nüsxədə nəşr olunması təmin edilsin.
4. Auditorlar Palatasının İctimaiyyətlə əlaqələr şöbəsinə (M.Hüseynova) tapşırılsın ki, nəşr edildikdən sonra iki həftə müddətində Biblioqrafiyanın aidiyyəti dövlət qurumlarına, habelə Azərbaycan Respublikası Prezidentinin kitabxanasına, Auditorlar Palatasının əməkdaşlıq etdiyi yerli və xarici qurumlara, Palatanın üzvləri və əməkdaşlarına siyahı əsasında paylanması təmin edilsin.
5. Bu qərarın mətni Auditorlar Palatasının internet səhifəsində yerləşdirilsin.

**Palatanın sədr müavini** **Fəxrəddin İsmayılov**

Azərbaycan Respublikasının Auditorlar Palatası
Chamber of Auditors of Azerbaijan Republic
Ümumi şöbə